

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 132 (21.284)

*8 iyul 2015-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Dövlət Universitetində "Elektron Naxçıvan-10" beynəlxalq konfransı keçirilmişdir





İyulun 7-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təşkilatçılığı ilə Naxçıvan Dövlət Universitetində "Elektron Naxçıvan-10: təhsil prosesinin təkmilləşdirilməsində informasiya-kommunikasiya texnologiyalarının rolu" mövzusunda beynəlxalq konfrans keçirilmişdir.

Əvvəlcə konfrans iştirakçıları Naxçıvan Dövlət Universitetinin elektron təhsil sistemi və rəqəmsal multimedia infrastrukturu ilə tanış olmuşlar.

Məlumat verilmişdir ki, ali təhsil ocağında informasiya-kommunikasiya texnologiyalarının ən son nailiyyətləri tətbiq olunmuş, yüksək tələblərə cavab verən elektron idarəetmə və tədris sistemi yaradılmışdır. İnformasiya-Kommunikasiya Texnologiyaları Mərkəzində 30 terabayt həcmində xüsusi serverlər və internet paylaşdırıcılar yerləşdirilmiş, universitet vahid telefon şəbəkəsinə qoşulmuşdur. Mərkəzi serverdə universitetin tələbə və müəllim kontingenti haqqında məlumatlar, idarəetmə ilə bağlı sənədləşmə işləri, müəllimlərin elektron imzaları yerləşdirilmiş, tədris planları və mühazirələrin elektron bazası yaradılmış, elektron mühazirə və imtahan otaqları istifadəyə verilmişdir. Rəqəmsal multimedia infrastrukturu videodərslərin hazırlanmasına və distant tədrisin tətbiqinə geniş imkanlar açmış, universitet televiziyasının texniki imkanları yüksəldilmişdir. Televiziyada ən müasir kameralar, video və səs sistemləri, montaj avadanlıqları və virtual studiya quraşdırılmış, onlayn dərslərin hazırlanması və çəkilişlərin aparılması üçün xüsusi proqramla təmin olunmuşdur.

Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Akif Əlizadə və konfrans iştirakçıları Konservatoriya binasının foyesində universitetin müəllim və tələbələrinin müxtəlif mövzu və janrlarda çəkdikləri rəsm əsərlərindən ibarət sərgiyə baxmışlar. Sərgidə ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin portretləri, muxtar respublikanın təbiət mənzərələrini əks etdirən rəsm əsərləri nümayiş etdirilmişdir.

Sərgi ilə tanışlıqdan sonra Naxçıvan Dövlət Universitetinin Konservatoriya binasının akt zalında "Elektron Naxçıvan-10: təhsil prosesinin təkmilləşdirilməsində informasiya-kommunikasiya texnologiyalarının rolu" mövzusunda beynəlxalq konfrans öz işinə başlamışdır.

Konfransda çıxış edən Naxçıvan Dövlət Universitetinin rektoru, professor Saleh Məhərrəmov demişdir ki, muxtar respublikada informasiya-kommunikasiya texnologiyalarından təhsil sistemində geniş istifadə olunur. Naxçıvan Dövlət Universitetində də bu sahədə mühüm işlər görülmüş, idarəetmə sistemi və tədris prosesi yüksək texnologiyalar əsasında qurulmuşdur. Universitetdə 42 elektron lövhə, 750-yə yaxın kompüter, 15 elektron kürsü quraşdırılmışdır. Yaradılan şərait tədrisin səviyyəsini yüksəltməklə yanaşı, müxtəlif səviyyəli tədbirlərin keçirilməsinə də əlverişli şərait yaratmışdır. Bunun nəticəsidir ki, son 20 ildə




universitetdə 200-ə yaxın beynəlxalq və ölkə əhəmiyyətli elmi konfrans və simpoziumlar keçirilmişdir. 2005-ci ildən etibarən hər il keçirilən "Elektron Naxçıvan" beynəlxalq konfransı universitetin əlaqələrinin genişlənməsinə geniş imkanlar açmış, Amerika Birləşmiş Ştatları, Çin, Fransa, Rusiya, Cənubi Koreya, Türkiyə, Kanada, Pakistan, Polşa, İsveçrə, Qazaxıstan, Özbəkistan universitetlərinin təmsilçilərinin Naxçıvan Dövlət Universitetinə maraqları artmışdır. Bunun nəticəsidir ki, həm elektron məkanda, həm də elmi mühitdə qarşılıqlı əlaqələr inkişaf etmiş, elmin, təhsilin, tədrisin, tələbə və müəllim mobilliyinin inkişafına nail olunmuşdur.

Saleh Məhərrəmov Naxçıvan Dövlət Universitetində informasiya-kommunikasiya texnologiyalarının inkişafı sahəsində həyata keçirilən tədbirlərə və yaradılan şəraitə görə minnətdarlıq etmişdir.

Sonra muxtar respublikada informasiya cəmiyyətinin formalaşdırılması və "Elektron Naxçıvan" layihəsi çərçivəsində görülən işlərdən bəhs edən film nümayiş olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir ki, 2005-ci ildən başlayaraq hər il Naxçıvanda "Elektron Naxçıvan" mövzusunda beynəlxalq konfrans keçirilir. Bu gün çox mühüm məsələyə – təhsil prosesinin təkmilləşdirilməsində informasiya-kommunikasiya texnologiyalarının roluna həsr olunmuş konfrans öz işinə başlayır.

Ali Məclisin Sədri bu münasibətlə konfrans iştirakçılarını və qonaqları təbrik etmiş, təşkilatçılara təşəkkürünü bildirmiş, alim və tədqiqatçılara elmi fəaliyyətlərində uğurlar arzulayaraq demişdir: Hər dövrün öz qanunauyğunluqları var. Buna uyğun olaraq ölkələrin inkişaf kriteriyaları müəyyənləşir. Bu gün hələ böyük əhali potensialına və orduya malik olan ölkələri güclü ölkə hesab etmirlər. O ölkə güclüdür ki, elm tutumlu qabaqcıl texnologiya və böyük informasiya çəkisinə malik olsun. İndi dünyanı informasiya texnologiyaları olmadan təsəvvür etmək çətindir. İnformasiya-kommunikasiya texnologiyaları insanların gündəlik həyatına nüfuz etmiş, elmin və təhsilin inkişafında, müasir iqtisadi sistemin formalaşdırılmasında mühüm faktora çevrilmişdir.

Ali Məclisin Sədri demişdir: Azərbaycanda yeni texnologiyaların tətbiqinə ötən əsrin 70-ci illərindən başlanmışdır. O dövrdə ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyası iki istiqamətdə həyata keçirilirdi. Bu istiqamətlərdən biri tarixi-mədəni irsin və milli dəyərlərin qorunub yaşadılması idisə, digər istiqamət müasir texnologiyalı iqtisadi sistemin formalaşdırılmasına hesablanmışdı. Azərbaycanda hesablama texnika və avadanlıqlarının istehsalı hesabına hələ o dövrdə informasiya texnologiyalarının təhsil sahəsinə tətbiqinin əsası qoyulmuşdu.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev informasiya texnologiyalarının inkişafını əsas sahə elan edərək demişdir: ***"İnformasiya-kommunikasiya texnologiyaları sahəsi bizim üçün prioritet sahələrdən biridir. Çünki bu sahə inkişaf, biznes, təhsil, şəffaflıq, gələcəyə aparan yol deməkdir".*** Bu gün Azərbaycanı gələcəyə aparan yolun uğurları aydın görünür. Bu yol xalqın həyat tərzinin daha da yaxşılaşmasına, rifah və tərəqqiyə hesablanıb. Bunun üçün ardıcıl tədbirlər görülür. Bütün sahələrdə müasir texnologiyalar tətbiq olunur.

Ali Məclisin Sədri demişdir: Naxçıvan Muxtar Respublikası uzun müddətdir ki, blokada şəraitində yaşayır. Buna baxmayaraq, informasiya-kommunikasiya texnologiyaları infrastrukturu ilbəil müasirləşdirilir. Yaşayış məntəqələrində yeni nəsil telekommunikasiya sistemlərinin qurulması rabitə xidmətlərinin səviyyəsini artırmış, mövcud avtomat telefon stansiyalarının 96 faizi fiber-optik arabağlantı ilə təmin edilmişdir. Bu gün Naxçıvan şəhərində də, ən ucqar dağ kəndində də əhali və təhsilalanlar informasiya-kommunikasiya texnologiyalarının imkanlarından eyni səviyyədə yararlanırlar. Artıq Naxçıvan informasiya blokadasından çıxmış, genişzolaqlı və simsiz internetdən istifadə insanların gündəlik həyat tərzinə çevrilmişdir. Aydın məsələdir ki, informasiya cəmiyyətinə keçid insanların yeni texnologiyalardan istifadə imkanlarını artırmaq hesabına mümkündür. Bu gün Naxçıvanda sürətlə kompüterləşmə gedir. Yaşayış məntəqələrinin 94 faizində genişzolaqlı, 80 faizindən çoxunda isə simsiz internet xidmətləri göstərilir.

Ali Məclisin Sədri təhsildə informasiya texnologiyalarının tətbiqinin cəmiyyətin intellektual inkişafının başlıca şərti olduğunu vurğulayaraq demişdir: Naxçıvan Muxtar Respublikasında elektron təhsilin inkişafı sahəsində görülən işlər də məhz bu məqsədə xidmət edir. Muxtar respublikanın ali, orta ixtisas, peşə və ümumtəhsil məktəblərində elektron tədrisdən istifadə təmin edilmiş, təhsil müəssisələrində 5 minə yaxın kompüter, 650-dən çox elektron lövhə quraşdırılmış, sürətli internetə çıxış imkanı yaradılmış, distant təhsil şəbəkəsi qurulmuşdur. Bundan başqa, sağlamlıq imkanları məhdud uşaqların da təhsilə inteqrasiyası məqsədilə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzi istifadəyə verilmiş, görmə və eşitmə qabiliyyəti məhdud uşaqlar üçün audio və elektron kitabxana yaradılmışdır.

Artıq 10 ildir ki, keçirilən "Elektron Naxçıvan" konfransları nəinki Naxçıvan Dövlət Universitetində, ümumilikdə muxtar respublikada informasiya cəmiyyətinə keçid və elektron təhsilin inkişafı sahəsində mühüm mərhələyə çevrilib. Bu da öz bəhrəsini vermiş, son illər Naxçıvan Dövlət Universitetində İnformasiya-Kommunikasiya Texnologiyaları Mərkəzi, distant tədris şəbəkəsi və multimedia infrastrukturu qurulmuş, elektron təhsil sistemi yaradılmışdır.

"Elektron təhsil sisteminin formalaşdırılması mürəkkəb və çoxşaxəli prosesdir. Ona görə ki, informasiya texnologiyaları daim inkişafdadır. Bu inkişafla ayaqlaşmaq və dünya təcrübəsindən yararlanmaq isə qarşıda duran əsas vəzifələrdəndir", – deyən Ali Məclisin Sədri "Elektron Naxçıvan-10" beynəlxalq konfransının təhsilin daha da təkmilləşdirilməsi sahəsində faydalı olacağına inamını ifadə etmiş, konfransa öz işində uğurlar arzulamışdır.

*Ardı 2-ci səhifədə*

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Akif Əlizadə çıxış edərək demişdir ki, “Elektron Azərbaycan”ın tərkib hissəsi olan “Elektron Naxçıvan” 10 il ərzində böyük inkişaf yolu keçmiş, informasiya cəmiyyətinin formalaşmasında yeni mərhələ olmuşdur. Bu gün muxtar respublikada bütün sahələrdə keyfiyyətli informasiya-kommunikasiya texnologiyaları infrastrukturu yaradılmışdır. Məhz “Elektron Naxçıvan” çərçivəsində əldə edilən nailiyyətlər hesabına blokada şəraitində yaşayan muxtar respublikanın qlobal virtual məkana çıxış imkanları daha da genişlənmişdir. Bu gün Naxçıvan Muxtar Respublikası intellektual potensialına və informasiya-kommunikasiya texnologiyalarının infrastruktur göstəricilərinə görə ölkəmizdə yüksək göstəriciyə malikdir. Naxçıvanda informasiya-kommunikasiya texnologiyalarının inkişafı sürətli sosial-iqtisadi inkişafa, o cümlədən təhsilin səviyyəsinin yüksəldilməsinə təkan vermiş, Naxçıvan Dövlət Universiteti informasiya-kommunikasiya texnologiyalarının yüksək səviyyədə tətbiq edildiyi nümunəvi ali məktəbə çevrilmişdir.

Azərbaycan Respublikasının Təhsil nazirinin müavini Firudin Qurbanov çıxışında demişdir ki, hazırda ölkəmizdə informasiya texnologiyalarına əsaslanan müasir təhsil sistemi qurulur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı fərman və sərəncamlara, qəbul edilən dövlət proqramlarına uyğun olaraq, təhsil infrastrukturu daim təkmilləşdirilir, təhsil müəssisələrində ən mütərəqqi tədris metodlarından istifadə olunur. Elektron dərsliklərin hazırlanması, ümumtəhsil məktəblərinin kompüterləşməsi, rəqəmsal tədris infrastrukturunun formalaşdırılması gənc nəslin hərtərəfli böyüməsinə imkan verir. Muxtar respublikada da bu sahədə kompleks tədbirlər görülür, müasir təhsil infrastrukturu yaradılır.

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Nizami adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli qeyd etmişdir ki, muxtar respublikada informasiya-kommunikasiya texnologiyaları əsasında təhsilin keyfiyyətinin yüksəldilməsi və elektron universitet quruculuğu prioritet istiqamətə çevrilmişdir. İnformasiya və kommunikasiya texnologiyalarının tətbiqi, xüsusilə təhsil müəssisələrinin kompüterləşdirilməsi və maddi-texniki bazasının müasirləşdirilməsi bunu bir daha təsdiq edir. Bu gün Naxçıvan Dövlət Universitetində keçirilən “Elektron Naxçıvan-10” beynəlxalq konfransı Naxçıvan Muxtar Respublikasında, ümumilikdə ölkəmizdə ali təhsil sisteminin informasiyalaşdırılması sahəsində atılan mühüm addımdır. Bu mənada “Elektron Naxçıvan” konfransları informasiya-kommunikasiya texnologiyalarının inkişafının Naxçıvan modeli kimi qəbul olunur. Bu layihənin həyata keçirilməsi Naxçıvan Dövlət Universitetinin beynəlxalq təhsil layihələrində iştirakına təkan vermiş, vətənpərvər, yüksək intellektli və dövlətçiliyə sədaqətli gənc nəslin yetişməsinə səbəb olmuşdur.

Beynəlxalq konfransda çıxış edən Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar nazirinin müavini Elmir Vəlizadə ölkəmizdə informasiya-kommunikasiya texnologiyalarının inkişafı istiqamətində həyata keçirilən tədbirlərdən danışmışdır. Qeyd olunmuşdur ki, Azərbaycan bu gün informasiya texnologiyalarının inkişafı sahəsində böyük nailiyyətlər qazanmışdır. Muxtar respublikada informasiya texnologiyalarının tətbiqi sahəsində görülən işlər ölkəmizdə bu sahənin inkişafına təkan verir. “Elektron Naxçıvan-10” beynəlxalq konfransının keçirilməsi muxtar respublikada informasiya-kommunikasiya texnologiyalarının inkişafının daha bir göstəricisidir.

Konfransın gedişində Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat və İnformasiya Texnologiyaları institutları, Azərbaycan Dillər Universiteti, Türkiyənin Ərzurum Atatürk Universiteti, Estoniyanın Tallin, İngiltərənin Vorvik universitetləri ilə videobağlantılar yaradılmış, Naxçıvan Dövlət Universitetinin Baytarlıq təbabəti korpusunda aparılan cərrahi əməliyyat, eləcə də elektron imtahan prosesi birbaşa izlənilmişdir.

Sonda Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin müəllim və tələbələri konsert proqramı ilə çıxış etmişlər.

**Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin mətbuat xidməti**

***“Elektron Naxçıvan-10: təhsil prosesinin təkmilləşdirilməsində informasiya-kommunikasiya texnologiyalarının rolu” mövzusunda Naxçıvanda keçirilən beynəlxalq konfransdan sonra AMEA-nın prezidenti, akademik Akif Əlizadədən Naxçıvanda elmin inkişafı, bu sahədə qazanılan uğurlar barədə fikirlərini öyrəndik.***

## Akademik Akif Əlizadə: Naxçıvanda elmin inkişafına göstərilən qayğı dəyərli elmi nəticələr əldə olunmasına şərait yaradır



Naxçıvanda elmin inkişafına yüksək diqqət və qayğı göstərildiyini bildirən Akif Əlizadə dedi ki, buraya hər gəlişimdə çox böyük yeniliklərlə qarşılaşıram. Bu gün AMEA Naxçıvan Bölməsinin elmi-tədqiqat institutlarının əməkdaşları, sözün həqiqi mənasında, dəyərli nəticələrə imza atırlar. Biz Naxçıvanda bölmənin müxtəlif institutlarını gəzdik, onların fəaliyyəti ilə yaxından tanış olduq. Yaradılan şərait qəlbimizi qürur hissi ilə doldurdu. Qeyd edim ki, buradakı bir neçə institutun fəaliyyəti xüsusilə diqqətəlayiqdir. Naxçıvanda dərman bitkilərinin istehsalata tətbiqi ilə bağlı böyük nailiyyətlər əldə edilməsi bizi xüsusilə sevindirdi.

İyulun 6-da keçirilən AMEA Rəyasət Heyətinin iclasından öncə maraqlı bir sərginin tamaşaçısı olduqlarını deyən AMEA-nın prezidenti vurğuladı ki, bu sərgi bir daha naxçıvanlı alimlər tərəfindən elmi nəticələrin istehsalata tətbiq səviyyəsinin yüksək olduğunu sübuta yetirdi. Mən və AMEA-nın Rəyasət Heyətinin üzvləri ona heyran qaldıq ki, elmin nəticəsinin istehsalata tətbiqi kimi mürəkkəb bir prosesin və həm də mürəkkəb bir vəzifənin öhdəsindən Naxçıvanın elm adamları yüksək peşəkarlıqla gələ bilirlər. Məlumat üçün bildirim ki, biz Azərbaycan Milli Elmlər Akademiyasında elmi-tədqiqat institutları üçün innovasiya şöbəsi yaratmışıq. Və bu şöbə həmin institutların işini stimullaşdırmağa, əldə olunan nəticələrin dəstəklənməsinə kömək edir, elm sahəsində qazanılan nəticələrin istehsalata tətbiq olunmasına yardımçı olur. Biz həmin şöbənin AMEA Naxçıvan Bölməsinin institutlarına da dəstək olması üçün nə lazımdırsa, edəcəyik.

“Bu gün elektron elmin tətbiqi inkişaf etmiş dünya ölkələrində prioritet məsələlərdən biridir. Və çox qürurverici haldır ki, Naxçıvanda bu məsələ öz həllini yüksək səviyyədə tapıb”, – deyən akademik Akif Əlizadə burada əldə edilən nəticələrin Azərbaycanın digər regionları ilə müqayisəedilməz dərəcədə yüksək olduğunu xüsusi vurğuladı. Bildirdi ki, hətta region ölkələrində buna ancaq qibtə edilə bilər. Bu gün “Elektron Naxçıvan-10: təhsil prosesinin təkmilləşdirilməsində informasiya-kommunikasiya texnologiyalarının rolu” mövzusunda keçirilən beynəlxalq konfrans Azərbaycanın elmi institutları və ali təhsil müəssisələri, Türkiyənin Atatürk, Estoniyanın Tallin, İngiltərənin Vorvik universitetləri ilə videobağlantılar yaradılması, virtual şəraitdə görüşlər keçirilməsi, elmi diskussiyalar aparılması, elmi problemlərin həlli yollarının araşdırılması, əməkdaşlıq şəraitində elmi-tədqiqat aparmaq imkanlarının əldə olunması, mən deyərdim ki, Naxçıvanda çoxlarının gözləmədikləri nəticələri göstərdi. Bunlar çox böyük nailiyyətlərdir. Gördüklərim məndə çox böyük təəssüratlar yaradıb. Naxçıvanda bu istiqamətdə görülən işlərə ancaq həsəd aparmaq olar. Dəqiq desək, bu gün Naxçıvanda elm sahəsində yüksək tempə nail olunub. Əldə edilən inkişaf tempi elmi kadrların daha həvəslə fəaliyyətinə şərait yaradıb. Naxçıvanda elmə kadr-elm yanaşması var. Bu, çox yüksək səviyyədə inkişaf etmiş mərhələdir. Ancaq bəzi istiqamətlərin inkişafına təsir edən kadr çatışmazlığı da var. Bu, AMEA-nın özündə də mövcuddur. Qeyd edim ki, AMEA Naxçıvan Bölməsinin bu sahədəki çətinlikləri aradan qaldırılmaqdadır. Bugünkü şərait imkan yaradıb ki, kadrlar özləri elmə meyil göstərir, Naxçıvanda elmin inkişafı üçün var qüvvələrini səfərbər edirlər. AMEA Naxçıvan Bölməsinə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin yüksək səviyyədə diqqət və qayğısı tam əminlik yaradır ki, Naxçıvanda elm sahəsində son illərdə qazanılmış uğurlar və nailiyyətlər günügündən artacaqdır. Ona görə də mən Naxçıvandan elmin inkişafı ilə bağlı nikbin əhval-ruhiyyə ilə ayrılıram. İnanıram ki, gələn səfərimizdə yeni-yeni nailiyyətlərin şahidi olacağıq.

**✍ Muxtar MƏMMƏDOV**

## Gənclər hərbi xidmətə yola salınır

***“Azərbaycan Respublikası vətəndaşlarının 2015-ci il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 29 may 2015-ci il tarixli Sərəncamına əsasən, Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində gənclərin müddətli həqiqi hərbi xidmətə yola salınması mərasimi keçirilib.***

Mərasimi giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-mayor Səxavət Salmanov açıb.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra xidmətin rəisi bildirib ki, ölkəmizdə bütün sahələr üzrə əldə edilən nailiyyətlər ordumuzun da hərtərəfli inkişafına və güclənməsinə səbəb olub. Bu gün Azərbaycanın, eyni zamanda onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının təhlükəsizliyini sayıqlıqla müdafiə edən müasir və güclü ordusu vardır. Ordu quruculuğu sahəsində görülən işlər, ölkəmizin hərbi qüdrətinin yüksələn xətt üzrə inkişaf etməsi ordumuzun istənilən anda işğal altında olan torpaqlarımızı azad etməyə qadir olduğunu göstərir. Silahlı Qüvvələrimizin muxtar respublikada yerləşən hərbi hissələrində maddi-texniki bazanın gücləndirilməsi, şəxsi heyətin mənəvi-psixoloji hazırlığına göstərilən diqqət çağırışçı gənclərin də böyük ruh yüksəkliyi ilə hərbi xidmətə yola salınmasına şərait yaradıb.

Səxavət Salmanov Vətən qarşısında borcunu yerinə yetirməyə yola düşən çağırışçıların valideynlərini təbrik edib və əmin olduğunu bildirib ki, övladları ordu sıralarında ləyaqətlə xidmət keçməklə, hərbi texnikanın sirlərinə yaxından yiyələnməklə, torpaqlarımızın keşiyində ayıq-sayıq dayanmaqla onların başını uca edəcəklər.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman nazirinin müavini Mirməcid Seyidov, Ədliyyə nazirinin müavini Elnur İsmayılov çıxış edərək bu əlamətdar hadisə münasibətilə çağırışçıları və onların valideynlərini təbrik ediblər. Çıxış edənlər Azərbaycan Ordusunun şanlı tarixindən, ulu öndər Heydər Əliyevin ikinci dəfə ölkə rəhbərliyinə qayıdışından sonra ordu quruculuğu sahəsindəki misilsiz xidmətlərdən söhbət açaraq bildiriblər ki, son illərdə ölkə başçısının xüsusi diqqət və qayğısı sayəsində ordumuz regionun ən güclü və qüdrətli ordusuna çevrilib. İndi bu ordu torpaqlarımızı düşməndən azad etməyə tam hazırdır.

Valideyn Fəxrəddin Vəliyev nəvəsinin hərbi xidmətə yola salınmasından böyük qürur hissi keçirdiyini bildirib, çağırışçı gənclərə xoş arzularını çatdırıb.

Çağırışçılar adından çıxış edən Ülvi Xəlilzadə Vətənə şərəflə xidmət edəcəklərinə, komandirlərinin tapşırıqlarını vaxtında və dəqiq yerinə yetirəcəklərinə söz verib.

Mərasim Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başa çatıb.

* * *

Həmin gün Şahbuz və Sədərək rayonlarında da gənclərin ordu sıralarına yolasalma mərasimləri keçirilib.

## 2015-ci ilin 6 ayı ərzində dövlət satınalmaları sahəsində fəaliyyət şəffaflıq şəraitində keçmişdir

2015-ci ilin 6 ayı ərzində muxtar respublikanın müəssisə və təşkilatları tərəfindən dövlət vəsaiti hesabına malların (işlərin, xidmətlərin) satın alınması zamanı qanunvericiliyin tələblərinin gözlənilməsi istiqamətində bir sıra tədbirlər görülmüş, işdə şəffaflıq prinsipi qorunmuş, müsabiqələrin qanunvericiliyə uyğun olaraq, ədalətli rəqabət şəraitində keçirilməsinə nəzarət gücləndirilmişdir.

Muxtar respublikada sosial-iqtisadi sahədə davamlı inkişafın təmin olunması ümumi daxili məhsulun həcminin də artmasına səbəb olmuşdur. Həyata keçirilən səmərəli iqtisadi siyasətin nəticəsidir ki, özəl sektorun ümumi daxili məhsuldakı payı ildən-ilə artır. Muxtar respublikada sahibkarlığa göstərilən diqqət və qayğı dövlət satınalmaları üzrə keçirilən müsabiqələrdə iddiaçılar arasında yerli məhsul istehsalçılarının daha fəal iştirakını təmin etmişdir. Belə ki, satın alınan ərzaq, bərk və yumşaq inventarların və sair məhsulların böyük hissəsi yerli istehsal hesabına ödənilir, aparılan tikinti, təmir-bərpa işlərinin əksər hissəsi yerli şirkətlər tərəfindən icra olunur.

2015-ci ilin 6 ayı ərzində muxtar respublikada keçirilmiş 75 satınalma müsabiqəsi nəticəsində 919 min manat dövlət vəsaitinə qənaət olunmuşdur.

***Son illərdə Şahbuz rayonunda müxtəlif təyinatlı obyektlərin həyata vəsiqə alması, yolların müasir tələblər səviyyəsində yenidən qurulması, körpülər salınması və digər quruculuq tədbirləri bu bölgəmizin simasını əsaslı şəkildə dəyişdirib.***

## Daha bir kənddə kompleks quruculuq işləri aparılır

Həyata keçirilən tədbirlərin nəticəsidir ki, ümumilikdə, 24 yaşayış məntəqəsi olan Şahbuz rayonunda 20 məktəb, uşaq bağçası, 20 kənd mərkəzi, 17 xidmət mərkəzi, məryəz xəstəxana, 5 həkim ambulatoriyası, 17 feldşer-mama məntəqəsi, rayon mərkəzində onlarla idarə, müəssisə, təşkilat öz fəaliyyətini müasir iş şəraiti yaradılmış binalarda davam etdirir.

Bu tədbirlərin davamı olaraq rayonun Daylaqlı kəndində məktəb və kənd mərkəzi üçün yeni binalar inşa olunur. “Dizayn İnşaat” Məhdud Məsuliyyətli Cəmiyyətinin bir qrup inşaatçısına həvalə edilmiş obyektlərdə görülən işin keyfiyyətinə ciddi diqqət yetirilir. Hazırda hər iki binanın ikinci mərtəbəsində qəlib-beton işləri başa çatdırılıb, hazır mərtəbələrdə hörgü işlərinə başlanılıb. Obyektlərin ərazisində abadlaşdırma işlərinə start verilib. İnşaatçılar onlara yaradılmış hərtərəfli şəraitdən səmərəli istifadə edir, obyekti vaxtında təhvil vermək üçün səy və bacarıqlarını əsirgəmirlər. 120 şagird yerlik məktəb binası 3 mərtəbədən ibarət olacaq. İdman zalı, kitabxana, laboratoriyalar, şahmat və kompüter otaqları, elektron lövhəli siniflər yeni məktəb binasında tədrisin yüksək səviyyədə təşkilinə imkan verəcək. Bu yaşayış məntəqəsində kənd mərkəzi üçün binanın inşasına başlanması da kənd sakinlərinin ürəyincə olub. Belə ki, bu mərkəzdə kənddə fəaliyyət göstərən dövlət qurumları üçün hərtərəfli iş şəraiti yaradılacaq.

Qeyd edək ki, Şahbuz şəhərinin girişində inşa olunacaq Bayraq Meydanının ətrafında geniş abadlıq işləri görülüb, səkilər salınıb, piyada keçidləri qoyulub. Ərazi terraslara ayrılıb, milli ornamentlərin əks olunduğu memarlıq elementləri ilə dizayn edilib. Bayraq dirəyinin hündürlüyü postamentlə birlikdə 37 metr olacaq. Ətrafda müasir işıqlandırma sistemləri quraşdırılacaq, park salınacaq, sakinlərin mənalı istirahəti təşkil ediləcək, ictimai iaşə obyekti tikiləcək.

**Xəbərlər şöbəsi**

*İyulun 6-da Naxçıvanda Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin iclası keçirilmişdir. Naxçıvan Şəhər İcra Hakimiyyətinin foyesində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təşkil etdiyi "Elmdən təcrübəyə" sərgisinə baxış olmuşdur. Bu sərgi bir daha göstərdi ki, Naxçıvanda elmin istehsalata tətbiqi yüksək səviyyədə həyata keçirilir. Bu sahədə AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutu da xeyli iş görmüşdür.*

*Elmdən istehsalata doğru*

## Naxçıvanda aparılan elmi-tədqiqat işləri zəngin təbii sərvətlərimizdən istifadəyə geniş imkanlar açıb

Naxçıvanın biomüxtəlifliyinin tədqiqi vəziyyəti AMEA Naxçıvan Bölməsi yaranana qədər sistemli olmamış, ərazinin malik olduğu taksonomik vahidlər müəyyənləşdirilməmiş, böyük əksəriyyət bitki və heyvanların aid olduqları qruplar, demək olar ki, tam tədqiq edilməmişdir. Bu çatışmazlıqları aradan qaldırmaq üçün Bioresurslar İnstitutunun əməkdaşları ərazinin tədqiq edilməmiş bitki və heyvanlar aləminin şöbə və siniflərinin bir çoxunu ciddi surətdə öyrənərək maraqlı nəticələr almışlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin elmi-tədqiqat işlərinin səmərəli aparılması üçün elm adamlarına göstərdiyi xüsusi diqqət və qayğı sayəsində müasir cihaz və avadanlıqlar alınmış, eyni zamanda təcrübə sahələrində su təchizatı da xeyli yaxşılaşdırılmışdır. Əməkdaşlarımız mütəmadi olaraq mövcud sahələrdə ekoloji mühitin yaxşılaşdırılması, ərzaq proqramının yerinə yetirilməsi üçün müxtəlif istiqamətlərdə elmi-tədqiqat işləri aparmış, sortların toxum materialları toplanılaraq AMEA Genetik Ehtiyatlar İnstitutunun Toxum genetik fonduna verilmişdir.

Bu gün regionun tükənməz təbii sərvəti hesab edilən bitkilər aləminin kompleks şəkildə hərtərəfli öyrənilməsi vacib və aktual problemlərdən biridir. Bioresurslar İnstitutunun Nəbatat bağında introduksiya edilən 100-ə yaxın ağac və kolları, həmçinin nadir və dərman bitkilərini də mədəni flora növləri kimi flora spektrinə daxil etsək, onda ərazidə 2900 növdən çox yabanı ali sporlu, çılpaqtoxumlu və örtülütoxumlu bitkilərin yayıldığı məlum olmuşdur. Bu, Azərbaycan florası növlərinin (5000) 58 faizini təşkil edir. Aparılan tədqiqatlar əsasında müəyyənləşdirmişik ki, faydalı bitkilərimiz, təqribən, 750-800 növə yaxındır. Ərazidə 27 faydalı bitki qrupları müəyyən edilmişdir. Bunlara yem, dərman, efir yağlı, piyli-yağlı, boyaq əhəmiyyətli, bəzək-bağçılıq üçün yararlı, balverən, yeyilən yabanı qida bitkiləri, aşı maddəli, lifli, kitrəli, qlükozidli, alkaloidli, vitaminli, kosmetik bitkilər aiddir.

Aparılan işlərdən ən mühümlərindən biri də yeni sort və formaların yaradılması və tətbiqindən ibarətdir. İnstitutumuzun uzun illər apardığı tədqiqat nəticəsində bütün parametrlərinə görə yerli sortlardan üstün olan yeni noxud və arpa sortu yaradılmışdır. Arpanın yeni yaradılmış "Qılçıqlı-85" sortu institutun Şornav təcrübə sahəsində kütləvi, Nəbatat bağının təcrübə sahəsində isə fərdi seçmə yolu ilə yaradılmışdır. Sort payızlıqdır və tezyetişəndir. Bir sünbüldə dənlərin sayı orta hesabla 60-65 ədəddir. Məhsuldarlığı hektara 60-75 sentner olmuşdur ki, bu da "Naxçıvan dəni" sortuna nisbətən hər hektardan 15-20 sentner çoxdur.

Noxudun "Qaraca-85" sortu beynəlxalq İCARDA elmi mərkəzindən alınmış Flip 03-115C genetik mənbələrindən fərdi və kütləvi seçmə metodları ilə yaradılmışdır. Sort ərzaq üçün qiymətlidir. Vegetasiya müddəti 115-130 gündür. Suya və torpağa az tələbkardır. Hektardan potensial məhsuldarlığı 25 sentnerdən çoxdur.

Naxçıvan Muxtar Respublikasının yaranmasının 85 illiyinə həsr edilən bu sortlar 3 il müddətində Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Seleksiya Nailiyyətlərinin Sınağı və Mühafizəsi üzrə Dövlət Komissiyası tərəfindən Azərbaycan Respublikasının 8 rayonunun sınaq məntəqələrində sınaqdan keçirilmiş və yüksək qiymətləndirilmişdir. Nəticədə, muxtar respublikada ilk dəfə olaraq yetişdirilən "Qaraca-85" noxud və "Qılçıqlı-85" arpa sortları sort funksiyasını doğrultmuş, patent və sertifikatlar alınmışdır. Hal-hazırda "Qaraca-85" noxud və "Qılçıqlı-85" arpa sortları artırılma sahəsində çoxaldılır.

Naxçıvan Muxtar Respublikasında vaxtı ilə şöhrət tapmış qiymətli üzüm sortları toplanmış, onların biomorfoloji və texnoloji təsərrüfat xüsusiyyətləri öyrənilmiş, eyni zamanda hibridləşdirmə və mutasiya yolu ilə yeni üzüm sortlarının yaradılması istiqamətində tədqiqatlar aparılaraq, 178 sortdan ibarət üzüm bitkisinin genofond zənginliyi aşkar edilmişdir. Bu sortların bioloji xüsusiyyətləri və ampeloqrafik əlamətləri öyrənilmiş və nəticələr "Naxçıvan Muxtar Respublikasının ampeloqrafiyası" kitabında öz əksini tapmışdır. Üzüm sortlarını əhatə edən "Üzüm genofondu" bağı institutun Şornav təcrübə sahəsində salınmışdır.

Muxtar respublikanın malik olduğu alma, gilas və gilənar sort və formaları öyrənilmiş, perspektivli aborigen sortlar seçilərək fermer təsərrüfatlarına becərilmək üçün tövsiyə edilmiş, bir çoxu Nəbatat bağında toplanılmışdır.

AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunda dərman bitkilərinin öyrənilməsi və istifadəsi istiqamətində də işlər aparılmışdır. Dərman bitkiləri toplanılaraq xüsusi reseptlər əsasında bitki qarışıqları hazırlanmış, Yaşıl aptekdə satışı təşkil edilmişdir. Bunun üçün xüsusi sertifikat da alınmışdır. Dərman bitkilərindən 27 adda yağ və ekstrat hazırlanmışdır. Onların yeni alınan cihaz və avadanlıqlar vasitəsilə daha təmiz məhsulunun əldə edilməsi üzərində "Biokimyəvi tədqiqatlar" laboratoriyası məşğul olur. İnstitutun əməkdaşları təbii ehtiyatı bol olan faydalı bitkilərimizin yayılma zonaları və təbii ehtiyatına dair bəzi araşdırmalar aparır. Regionda geniş yayılmış və təbii ehtiyatı bol olan dərman bitkilərinə adi boymadərən, təpəlik kəklikotu, adi dazı, kələkötür dazı, adi qaraqınıq, qatlı solmazçiçək, aptek gücotu, hündür andız, hündür qantəpər, quş qızılcığı, ürək damotu, tarla qatırquyruğu, dərman şahtərəsi, gürcü boyaqotu, adi üzərlik, adi yağtikan, tikanlı karvanqıran, yarpaqsız öldürgən, çölnanəsi və onlarla digərləri daxildir. Bunlarla yanaşı, qeyd etdiyimiz təcrübə sahələrində bir çox qiymətli dərman bitkiləri əkilib-becərilərək dərman bitki yığıntıları hazırlanır və institutun nəzdində fəaliyyət göstərən Yaşıl aptekdə satışı təşkil olunur. Bir çox vacib dərman bitkiləri ərazimizdə yabanı halda bitmirlər, onlar becərilən bitkilərdir. Bu qrup dərman bitkilərinə ətirli qızılgül, ətirli şüyüd, ətirli cəfəri, ətirli kərəviz, bostan reyhanı, adi razyana, adi yerkökü, adi zəyərək, əkin keşnişi, dərman gülümbaharı, bağ məzrəsi, istiot nanəsi, qara çörəkotu, böyük dəmrovotu, boyaq sarıçiçəyi (yalançı zəfəran), əkin zəfəranı, aptek birəotu, məxmərgülü və başqaları aiddir.

Naxçıvanın tükənməz təbii bitki ehtiyatlarından biri də meyvə-giləmeyvə bitkiləridir. Təkcə 1988-ci ildə muxtar respublikadan 83,3 ton həmərsin, 82,1 ton yemişan, 157 ton yabanı alma və armud meyvələri, 56,3 ton kəklikotu və sair tədarük edilmişdir. Yenə də hər il minlərlə ton meyvə və giləmeyvə, texniki dərman bitkiləri tədarük oluna bilər. Lakin haliyədə muxtar respublikanın yeyilən yabanı qida, texniki dərman və xüsusən yabanı meyvə-giləmeyvə bitki məhsullarının tədarükü və satışı ilə məşğul olan idarə və təşkilatlar olmadığından, tükənməz təbii sərvətlərimizin əsasını təşkil edən yüz min tonlarla sərvətin istifadəsiz itkisinə yol veririk.

İstər dərman bitkiləri, istərsə də meyvə-giləmeyvə bitkilərini toplayarkən mütləq qayda-qanuna ciddi əməl edilməlidir. Tutaq ki, bir ağacdan yemişan məhsulu toplayırsan, bu zaman ən azı 30-40 faiz məhsul ağac üzərində heyvanlar və bitkinin reproduksiyası üçün saxlanılmalıdır. Dərman bitkilərini toplayarkən həm toplanılma zamanı bilinməli, həm də bitkinin inkişaf xüsusiyyəti öyrənilərək toplanılmalıdır. Çünki bəzi bitkilər, xüsusən kəklikotu, kiçikdiş dağnanəsi və sair çox zəif inkişaf edir, bəziləri monokarp bitki olub, yalnız ömründə bir dəfə çiçək açaraq toxum verir. Ona görə də mütləq toplanılan bitkilər və toplanılacaq ərazilər xüsusi ekspertizadan keçirilməlidir. Bu bitkilərin çoxu haqqında "Naxçıvan Muxtar Respublikasının dərman bitkiləri" kitabında ətraflı məlumat verilmişdir.

Artıq muxtar respublika ərazisində konserv zavodları fəaliyyətə başlayıb. Hələlik, yalnız mədəni flora məhsulları istehsal edilir, şübhəsiz, yaxın zamanlarda yabanı meyvə bitkiləri də istehsala cəlb ediləcəkdir.

Azərbaycan Respublikasında mövcud olan 638 növ onurğalı heyvanın 392 növü (61 faiz), yarıdan çoxu muxtar respublika ərazisində yaşayır. Onurğalı heyvanların istifadə imkanları, demək olar ki, çox yüksəkdir, lakin insanın ilk əhliləşdirdiyi keçinin (bezoar keçisi) və qoyunun (Kiçik Asiya muflonu) əcdadı olan bu növlər yeni heyvan cinslərinin yaradılmasında öz tətbiq zamanını gözləyir. Toyuqkimilərin nümayəndələri olan Xəzər uları, gözəl, boz və səhra kəklikləri, həmçinin böyük ovçuluq əhəmiyyəti kəsb edən bala dovdaq və dovdaq, çoxlu miqdarda qaz, ördək və cüllütlər də insanın həm iqtisadi, həm də estetik ehtiyacını ödəyə bilər. Balıqçılığın, xüsusən qızıl balığın süni hovuzlar sistemi ilə yetişdirilməsi də böyük iqtisadi səmərə verir. Ərazidə yayılan 3 gürzə (Cənubi Qafqaz gürzəsi, çöl gürzəsi və Radde gürzəsi) növü hesabına muxtar respublikada serpentariya mərkəzi yaradaraq gürzə zəhəri hesabına çox qiymətli dərman preparatlarının hazırlanılması da təşkil edilə bilər.

**Tariyel TALIBOV**
***AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun direktoru, akademik***

***Son illər muxtar respublika iqtisadiyyatında yüksək templə inkişaf edən sahələrdən birinə çevrilən və yerli istehsalın stimullaşdırılmasında mühüm əhəmiyyətə malik olan sənaye sektorunda həyata keçirilən tədbirlər Naxçıvanın aqrar regiondan sənaye regionuna çevrilməsinə şərait yaradıb, nəticədə, muxtar respublikada müxtəlif çeşiddə yüksək keyfiyyətli məhsullar istehsal edən rəqabətqabiliyyətli müəssisələr fəaliyyətə başlayıb.***

*Naxçıvan məhsulları xarici bazarda*

## "Gəmiqaya Mebel Fabriki" MMC-də yeni istehsal sahəsi yaradılıb



Belə müəssisələrdən biri də "Gəmiqaya Mebel Fabriki" Məhdud Məsuliyyətli Cəmiyyətidir. Mühəndis Rövşən Mehdiyev bizimlə söhbətində qeyd etdi ki, müəssisədə Almaniya, İtaliya və Türkiyə respublikalarından alınmış müasir texnoloji avadanlıqlar quraşdırılıb, müxtəlif çeşiddə keyfiyyətli məhsul istehsalı üçün geniş imkanlar yaradılıb. Mebel fabrikində divan, kreslo və yumşaq oturacaqlı stullar, döşəmə, həmçinin ofis, mətbəx, yataq mebelləri, qapı-pəncərə, dekorasiya və qapı-pəncərələrin boyanması üçün boyaqxana sexləri fəaliyyət göstərir. Burada ağac profilli qapı və pəncərələr, modern və klassik üslubda dizayn edilmiş mebellər, sosial və inzibati binalar üçün müxtəlif avadanlıqlar istehsal edilməklə yanaşı, dizayn-dekorasiya xidmətləri də göstərilir. İqtisadi əlaqələri genişlənən müəssisədə daxili bazarın tələbatına uyğun yeni istehsal sahələrinin yaradılması məqsədilə silikon yorğan, döşək və yataq bazası istehsalı sahələrinin biznes-planı hazırlanıb Sahibkarlığa Kömək Fonduna təqdim olunub. Layihənin reallaşması üçün Sahibkarlığa Kömək Fondundan 2014-cü ilin iyun ayında 1 milyon 200 min manat dövlət maliyyə dəstəyi göstərilib və layihənin icrasına başlanılıb. Layihəyə uyğun olaraq müəssisənin ərazisində yeni istehsal sahəsi inşa olunub. Türkiyənin "Elektroteks" və "İMS Makina" şirkətlərinin avadanlıqları alınıb gətirilib və idxal olunan dəzgahlar həmin şirkətlərin mütəxəssisləri tərəfindən quraşdırılıb. Bu istehsal sahəsində çalışan yerli mütəxəssislərin hazırlanması da diqqət mərkəzində saxlanılıb, işçilərin ixtisasartırma kurslarında iştirakı təmin olunub. İstehsal gücü saatda 200 ədəd yorğan, gündə 100 ədəd döşək və 100 ədəd yataq bazası olan yeni istehsal sahəsinin yaradılması daxili bazarın yerli məhsullarla təmin olunmasına əlverişli şərait yaratmaqla bərabər, əhalinin məşğulluğunun təmin olunmasında da mühüm rol oynayıb, 16 nəfər mütəxəssis daimi işlə təmin edilib.

Fabrikdə tətbiq olunan keyfiyyətə nəzarət sistemi mebel istehsalında istifadə olunan materialların və hazır məhsulların davamlılığını, uzunömürlülüyünü təmin edir. Material kimi istifadə olunan məhsulların bir qismi Türkiyə Respublikasından, Afrika ölkələrindən, Gürcüstan Respublikasından idxal olunur. Digər materialların bir qismi isə Naxçıvana məxsusdur.

Müəssisədə istehsal prosesi avtomatlaşdırılıb, texniki təhlükəsizlik qaydalarına ciddi əməl olunmaqla normal iş şəraiti yaradılıb. Burada fəaliyyət göstərən laboratoriyada müasir avadanlıqlar quraşdırılıb ki, bu da istər xammal, istərsə də hazır məhsulların keyfiyyət göstəricilərinə nəzarətin təmin olunmasına imkan verir. Hazırlanan məhsullar "Gəmiqaya" əmtəə nişanı ilə fabrikin sərgi-satış salonunda, Naxçıvan şəhərinin "Təbriz" küçəsində, Babək məhəlləsində və Ordubad şəhərində fəaliyyət göstərən mebel mağazalarında satışa çıxarılır. Müəssisədə istehsal olunan klassik, avanqard və modern mebellər ölkəmizin paytaxtında və digər regionlarda da alıcılar tərəfindən rəğbətlə qarşılanır. Hazırda Bakı şəhərinin Nərimanov və "Neftçilər" prospektlərində, Sumqayıt, Goranboy, Lənkəran şəhərlərində satış mərkəzləri fəaliyyət göstərir. Müəssisənin satış mərkəzlərinə müraciət edən müştərilərə zövqlərinə və ev şəraitinə uyğun müxtəlif çeşiddə mebellər təklif olunur. Müştərilər hazır mebelləri satış mərkəzlərindən seçə və ya sifariş verə bilərlər.

Hazırda istehlakçılar tərəfindən həm klassik, həm də modern üslubda hazırlanan mebellərə böyük tələbat var. Naxçıvan şəhərində ayrı-ayrı ünvanlarda fəaliyyət göstərən mebel mağazalarında müştərilərin bu yerli məhsula olan münasibətlərini öyrəndik. Naxçıvan şəhər sakini Fəridə Məmmədova qeyd etdi ki, yeni mənzil almışıq. Evimizin dizaynına uyğun mebel seçdik. Burada öyrəndik ki, mebellərin çatdırılması və quraşdırılması fabrikin mütəxəssisləri tərəfindən pulsuz yerinə yetirilir. Mebellərin keyfiyyətindən və göstərilən xidmətdən çox razıyıq.

Ordubad rayon sakini Gülbəniz Bayramova isə alıcı zövqünü oxşayan hər cür mebellərin olduğunu bildirdi və onu da qeyd etdi ki, müştərilərə seçim etmək imkanı yaradılıb. Hər bir evin ölçüsünə və dizaynına uyğun mebelləri sifariş vermək də mümkündür. Bu, çox yaxşı haldır və hər bir müştərinin ürəyincədir.

Naxçıvan şəhər sakini Nadir Vəliyev: İstehsal olunan məhsulların keyfiyyətli olması işin bir tərəfidirsə, onu olduğu kimi müştəriyə çatdırmaq başqa bir tərəfidir. Yəni bir-birini tamamlayan ayrı-ayrı sahələrdir. Ailə həyatı qurub Bakı şəhərində yaşayan övladım üçün mebel almaq istəyirdim. Öyrəndim ki, Bakı şəhərində də müəssisənin mebel mağazaları fəaliyyət göstərir. Həm məhsulun keyfiyyətindən, həm də göstərilən xidmətdən çox razıyam.

Məhsulları keyfiyyəti ilə seçilən "Gəmiqaya Mebel Fabriki" Məhdud Məsuliyyətli Cəmiyyəti qısa zamanda rəqabətqabiliyyətli müəssisəyə çevrilib. Burada istehsal olunan mebellər daxili bazarda özünə böyük istehlakçı kütləsi toplayıb. Müəssisədə istehsal olunan mebellərin xarici bazarlarda tanıdılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir, biznes forumlarda və sərgilərdə iştirak edilir, xarici şirkətlərin nümayəndələri ilə fikir mübadilələri aparılır, bu sahə ilə məşğul olan sahibkarların təcrübələrindən bəhrələnməklə xarici bazarlardan alıcı cəlb edilməsinə çalışılır. Həyata keçirilən kompleks tədbirlərin nəticəsidir ki, müəssisənin Gürcüstan Respublikasının Tbilisi və Batumi şəhərlərində satış mərkəzləri yaradılıb. Digər xarici ölkələrdə də müəssisədə istehsal olunan mebellərin satışa çıxarılması nəzərdə tutulur.

Müəssisədə 336 nəfər daimi işlə təmin olunub. Kollektiv əməyin məhsuludur ki, "Gəmiqaya Mebel Fabriki" Məhdud Məsuliyyətli Cəmiyyətinin məhsullarına tələbat artıb, ixrac potensialı genişlənib.

**Kərəm HƏSƏNOV**

## Şərur: Azərbaycanın müasir şəhərlərindən biri



**Şərura çatmağımıza az qalmış şəhərin uzun illər bundan əvvəlki miskin görkəmi yadıma düşdü. Rayonun bu mənzərəsini yaxşı xatırlayıram. Əslən bu rayondan olduğum üçün yaşımın bu vədəsinə kimi hər həftə, hər ay Şərura getmişəm. Ona görə də Şərurun dünənini və bu gününü müqayisə etmək mənim üçün çətin deyil.**

Otən əsrin 90-cı illərinin əvvəllərində Şərurun şəhər olmağı yalnız adında idi. Nə yolları yol idi, nə də küçələri. Piyadalar üçün gediş-gəliş yollarını zəbt edən primitiv köşkləri, yöndəmsiz, köhnə tikililəri rayon sakinləri yaxşı xatırlayırlar. Kəskin şaxtalı-çovğunlu qışın gəlişi qayğıları daha da artırırdı. Uzun qış gecələri dözülməz olurdu. Bu saatlarda şəhər zülmətə bürünürdü. Heç yadımdan çıxmaz. 1994-cü il idi. Qonşuluqda yaşayan ailələrdən biri Naxçıvan şəhərinə köçürdü. Həmin gün valideynlərimizin etdiyi söhbəti indi də yaxşı xatırlayıram. Qonşu Tünzalə xala burada vəziyyətin dözülməz olduğunu, çörəkpulu qazanmağın çətinliklərini və gün-güzəranlarının getdikcə pisləşdiyini ürəkağrısı ilə anama danışaraq tez-tez ah çəkirdi. O səhnəni, yəqin ki, unuda bilməyəcəm. İndi hər dəfə o küçədən keçəndə istər-istəməz o evə tərəf boylanıram. Uşaqlıq xatirələrimin yaşadığı bu ünvanı bugünkü görkəmdə görəndə gözlərimə inana bilmirəm. Sanki bu küçə elə bu gün gördüyüm kimi olub – uzun illər bundan əvvəl uçuq-sökük evin yerində, necə deyərlər, saray ucaldılıb. Tünzalə xalagil neçə illər əvvəl yenidən doğma Şərur torpağına qayıdaraq burada özlərinə yaxşı şərait yaradıblar.

Bu düşüncələrlə bir də baxdım ki, Şərur şəhərindəyik.

Şərurla bağlı uşaqlıq xatirələrimi bir-bir yada salaraq şəhəri gəzirəm. Bu dəfə heç kəslə danışmayacağımı qərara almışam. İstəyirəm ki, doğma şəhərimlə baş-başa verəm. Onun üçün də müsahibim elə Şərur şəhərinin özüdür. Şəhəri gəzirik və gördüklərimizi həmkarım fotoaparatın yaddaşına köçürür. Ürəkaçan görüntülər bir deyil, beş deyil. Hara baxırsan, bir yenilik gözə dəyir. Şəhərin təmizliyinə də söz ola bilməz.

Oğuz-türk yurdu bu gün regionun ən abad və yaraşıqlı yaşayış məskənlərindən birinə çevrilib. Tikilən, ərsəyə gətirilən obyektlərin əksəriyyəti son illərin ərməğanlarıdır. Ancaq onu da mütləq vurğulamalıyam və hər bir şərurlu da təsdiq edər ki, bu gün qurulanlar, ərsəyə gətirilənlər, insanların ixtiyarına verilənlər elə-belə başa gəlməyib. Zəhmət çəkilib, tər tökülüb, yollar axtarılıb. Çəkilən zəhmət isə Şərurda öz bəhrəsini verib.

Yadıma xalqımızın ümummilli lideri Heydər Əliyevin Şərur və onun işgüzar sakinləri barəsində söylədiyi fikirlər düşür: ***"Şərur rayonunun imkanları böyükdür. Burada yaxşı torpaqlar var, çox fədakar insanlar var"***, – deyən müdrik rəhbər rayon sakinləri ilə görüşündə onlara öz tövsiyə və tapşırıqlarını da verib: ***"Arzu edirəm ki, Şəruru daha da abadlaşdırasınız, gözəlləşdirəsiniz və iqtisadiyyatınızı daha da inkişaf etdirəsiniz".***

Sakinlər ulu öndərin bu tapşırıqlarını layiqincə yerinə yetirməyə çalışırlar. Regionların sosial-iqtisadi inkişafı dövlət proqramı çərçivəsində həyata keçirilən tədbirlər diqqəti daha çox cəlb edir. Rayonda bir sıra infrastruktur layihələri həyata keçirilib, onlarla müasir bina inşa olunub. Demək olar ki, rayonun bütün idarə, müəssisə və təşkilatları belə binalarda fəaliyyət göstərir. Bu isə torpaq qədri bilən yurd təəssüblü şərurlulara yüksək səviyyədə xidmət etməyə imkan verib.

Şərur şəhərində diqqəti çəkən ünvanlardan biri ümummilli lider Heydər Əliyevin adını daşıyan prospektdir. Prospekt abadlığı, səliqə-sahmanı, gülzarlıqları ilə seçilir. Bu isə, ilk növbədə, şərurluların ulu öndərin adı ilə bağlı ünvanı daha gözəl, yaraşıqlı görmək, fərqləndirmək istəyindən qaynaqlanır. Axı hər yerdə olduğu kimi, bu rayonda da insanlar yaxşı dərk edirlər ki, bu xoş günləri, əmin-amanlığı bizə məhz ulu öndərimiz bəxş edib; bugünkü inkişafın təməli ümummilli liderimiz tərəfindən qoyulub.

Bir məsələni xüsusilə diqqətə çatdırmaq istəyirəm. Hər dəfə Şərur şəhərinə üz tutanda burada müxtəlif təyinatlı obyektlərin tikintisinin şahidi oluruq. Yeni ucaldılan yaraşıqlı tikililər, müasir görkəmə salınan yaşayış binaları, parklar göz oxşayır, qəlbi riqqətə gətirir. Əlbəttə, bütün bunlar sadə görüntü, yaxud bəsit məntiqin nəticəsi kimi yozulmamalıdır. Bütövlükdə, muxtar respublikamıza xas olan quruculuq, abadlıq ab-havasının bu rayon mərkəzində yaratdığı füsunkarlığın arxasında böyük məna dayanır. Salınmış səkilər, bir-birindən yaraşıqlı, müasir binalar, onların ətraflarını bəzəyən çiçəklər, gülzarlıqlar, parklar, xiyabanlar gözəllik mahiyyəti kəsb etməklə yanaşı, sağlam mənəvi atmosferi, əhalinin rahatlığını, həmçinin şərurluların qurub-yaratmaq əzmini də göstərir.

Azərbaycan ədəbiyyatının böyük simalarından olan Nizaminin və Sabirin adını daşıyan ünvanları da gəzdim. O ünvanları ki, bir vaxtlar az qala yaddan çıxmış, necə deyərlər, gözdənuzaq, könüldəniraq düşmüşdülər. Həmin küçələrdə elə böyük abadlıq-quruculuq işləri aparılıb ki, sözlə təsvir etmək çətindir.

Şərur şəhərində iki tam orta məktəb fəaliyyət göstərir. Hər iki təhsil ocağına muxtar respublikada aparılan abadlıq, quruculuq işlərindən pay düşüb. Məktəblərin binaları yenidən qurulub, maddi-texniki bazaları gücləndirilib. Bu, təhsil ocaqlarında tədrisin səviyyəsinin yüksəldilməsinə müsbət təsir göstərib.

Ölkə Prezidenti cənab İlham Əliyev 2007-ci ilin oktyabr ayında Naxçıvana səfəri zamanı rayon mərkəzində inşa olunmuş xəstəxana şəhərciyi kompleksinin açılış mərasimində iştirak edərkən burada görülən işləri, həyata keçirilən tədbirləri yüksək qiymətləndirib: ***"Çox şadam ki, Şərurda belə gözəl səhiyyə ocağı tikilib istifadəyə verilibdir. Mən xəstəxana ilə indi tanış oldum, gördüm ki, sözün əsl mənasında, bütün dünyada mövcud olan yüksək standartlara cavab verən bir tibb ocağıdır. Belə gözəl xəstəxanalar inkişaf etmiş ölkələrin böyük şəhərlərində də tikilmir".***

***Şərur şəhərindən ayrılanda nahar vaxtı idi. Müxtəlif idarə, təşkilat və müəssisələrdə çalışanların bir qismi nahar üçün evlərinə tələsirdi. Onların üzlərinə baxdım. Təbəssümlü baxışları çox mətləblərdən xəbər verirdi. Hiss etmək çətin deyildi ki, onlar Şərurun bu günü ilə qürur hissi keçirirlər. Həmin gün gördüyüm, şahidi olduğum hər bir şey – abad yol, yaraşıqlı məktəb binaları, gözoxşayan olimpiya-idman kompleksi mənə röya görürmüş kimi gəlirdi. Amma bütün bunlar yuxu deyil, gerçəklik, obrazlı desəm, müstəqillik Günəşinin yaşı qədim, özü yeni qurulan bir yurd yerinə saçdığı şəfəqin ziyasında parlayan quruculuq ərməğanları, müasir günlərimizin reallığıdır.***

**Sara ƏZİMOVA**

*Cari ildən Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tabeliyindəki tibb müəssisələrində çalışan həkim və orta tibb işçilərinə ixtisas dərəcələrinin verilməsinə başlanacaqdır. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində ixtisas komissiyası yaradılmışdır.*

## Həkim və orta tibb işçilərinə ixtisas dərəcələri veriləcək

Büdcədən maliyyələşdirilən səhiyyə müəssisələrində tibbi xidmət sahəsində yüksək iş təcrübəsi ilə fərqlənən həkim və orta tibb heyəti vəzifələrində çalışan səhiyyə işçilərinə ixtisas dərəcələrinin verilməsi qaydaları müəyyən edilmişdir. Həmin qaydalara görə, tibbi xidmət sahələrində yüksək iş təcrübəsi, peşəkarlıq səviyyəsi ilə fərqlənən tibb işçilərinə ali, birinci və ikinci ixtisas dərəcəsi verilir. Tibb işçilərinə ixtisas dərəcəsinin verilməsi praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin (işçilərin) sertifikasiyasının nəticələrinə uyğun olaraq müəyyən edilir.

İxtisas dərəcələrinin verilməsinə qoyulan tələblərə əsasən, səhiyyə müəssisələrində çalışan və ixtisası üzrə əmək stajı beş ildən az olmayan ali və orta təhsilli tibb işçiləri ardıcıllıqla (ikinci, birinci, ali) ixtisas dərəcəsini almaq hüququna malikdirlər.

İxtisas komissiyasının üzvləri tərəfindən praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olmaq üçün sertifikasiyadan keçən tibb işçilərinə ixtisas dərəcəsinin verilməsi məqsədilə səhiyyə mütəxəssisinin beş il ərzində ixtisası üzrə fəaliyyəti barədə hesabatı ilə tanış olaraq onların ixtisasına aid praktik bilik səviyyəsini və peşə vərdişlərini müəyyən edən suallar verilir. Tibb işçilərinə ixtisas dərəcələrinin verilməsi barədə ixtisas komissiyası tərəfindən rəy hazırlanarkən onların mövcud ixtisas dərəcəsinin təsdiq və ya dəyişdirilməsi barədə nazirlik qarşısında vəsatət qaldırılır.

İxtisas dərəcələrinin verilməsi aşağıda qeyd olunan meyarlara əsasən müəyyən edilir:

*-II dərəcə: ixtisas üzrə 5 il stajı olan, tutduğu vəzifədə ixtisası üzrə sərbəst fəaliyyət göstərən, mütəxəssis kimi iş yerində müsbət xarakterizə olunan;*

*-I dərəcə: ixtisas üzrə 10 ildən artıq stajı olan, ixtisası üzrə sərbəst fəaliyyət göstərən, ixtisasına aid müxtəlif tədbirlərdə iştirak edən, mütəxəssis kimi iş yerində müsbət xarakterizə olunan;*

*-ali dərəcə: ixtisas üzrə 15 ildən artıq stajı olan, ixtisasına uyğun yüksək ixtisaslaşdırılmış tibbi xidmət göstərməyə bacarığı olan, elmi-praktik konfranslarda iştirak edən, mütəxəssis kimi iş yerində müsbət xarakterizə olunan.*

İxtisas komissiyası tərəfindən namizədin tibb üzrə fəlsəfə doktoru və ya tibb elmləri doktoru elmi dərəcəsinin olması, rezidenturanı bitirməsi, elmi məqalələrin dərc edilməsi nəzərə alınır.

İxtisas komissiyası tərəfindən verilən rəy müvafiq formada hazırlanır və komissiyanın sədri, katibi, üzvləri tərəfindən imzalanır və təsdiq üçün nazirliyə təqdim olunur. Nazirliyin əmri ilə bir həftə ərzində tibb işçisinə müvafiq formada ixtisas dərəcəsi barədə beş il müddətinə şəhadətnamə verilir.

İxtisas dərəcəsi olan tibb işçisinə hər ay aşağıdakı miqdarda əlavə haqq ödənilir:

*-ali ixtisas dərəcəsinə görə – vəzifə maaşının 25 faizi miqdarında;*

*-birinci ixtisas dərəcəsinə görə – vəzifə maaşının 15 faizi miqdarında;*

*-ikinci ixtisas dərəcəsinə görə – vəzifə maaşının 10 faizi miqdarında.*

İxtisas dərəcəsinə görə əlavə haqq ixtisas dərəcəsinin hansı ixtisasa görə verilməsindən asılı olmayaraq, ixtisas dərəcəsinin qüvvədə olduğu müddətdə (sonuncu ay tam nəzərə alınmaqla) bu dərəcənin alındığı növbəti aydan başlayaraq ödənilir. İş yerini dəyişən tibb işçisinin ixtisas dərəcəsi saxlanılır.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Gənclər muzeylərdə olublar

Dünən Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin tədbirlər planına əsasən, Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi və Babək Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə bir qrup gəncin Naxçıvan şəhərindəki Cəmşid Naxçıvanskinin ev-muzeyinə və Xatirə Muzeyinə ekskursiyası təşkil edilib. Gənclərə hər iki muzeydə olan eksponatlar və hərb tariximiz barədə ətraflı məlumat verilib. Bu kimi tədbirlərin gənc nəslin vətənpərvərlik tərbiyəsinin düzgün formalaşdırılmasında, hərb tariximizin öyrənilməsində müstəsna əhəmiyyət kəsb etdiyi nəzərə alınaraq gələcəkdə də keçirilməsi davam etdiriləcək.

## Ordubad rayonunda mini-futbol turniri başa çatmışdır

Ordubad rayonunda 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş 15 iyun-6 iyul 2015-ci il tarixləri arası keçirilən mini-futbol yarışı başa çatmışdır.

Final görüşünə kimi 10 komanda dairəvi üsulla oyunlar keçirmiş və 4 komanda yarımfinal mərhələsinə vəsiqə qazanmışdır. Ordubad rayon birinciliyinin həlledici qarşılaşmasında Ordubad Rayon Gənclər və İdman İdarəsinin "Gənclər birliyi" komandası ilə Ordubad şəhərinin "Qapıcıq" komandası üz-üzə gəlmişlər. "Qapıcıq" komandası 4:2 hesabı ilə qalib gəlmiş və birinci yerə layiq görülmüşdür.

Qalib komanda kubok, diplom və qiymətli hədiyyələrlə mükafatlandırılmışdır.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

***İtmişdir***

Naxçıvan şəhərinin Qaraxanbəyli kənd sakini Səfərov Arzu Nəbi oğlunun adına olan 204 inventar nömrəli texniki pasport və MH-0009605 seriya nömrəli reyestrdən çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 527